# ELMİ TƏDQİQAT

Beynəlxalq onlayn elmi jurnal

# SCIENTIFIC RESEARCH

International online scientific journal

aem.az

AEM

e-ISSN: 2789-6919

**AZƏRBAYCAN RESPUBLİKASI**

**THE REPUBLIC OF AZERBAIJAN**

# ELMİ TƏDQİQAT

**Beynəlxalq onlayn elmi jurnal**
**İmpakt Faktor: 0.543**

**Cild: 2 Sayı: 1**

# SCIENTIFIC RESEARCH

**International online scientific journal**
**Impact Factor: 0.543**

**Volume: 2 Issue: 1**

**Bakı – Baku**
**2022**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Reyestr № 4336

On 01.03.2021, the journal
was included in the register of
Press publications of the
Ministry of Justice of the
Azerbaijan Republic
Registration № 4336

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Matbuat avenue, 529,
“Azerbaijan” Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**e-mail:**
tedqiqat1707@aem.az

## Beynəlxalq indekslər / International indices

**e-ISSN: 2789-6919**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor:**
**Mübariz HÜSEYİNOV**
tədqiqatçı
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCHID ID 0000-0002-5274-0356

**Founder and Editor-in-Chief:**
**Mubariz HUSEYINOV**
researcher
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCHID ID 0000-0002-5274-0356

**Redaktor:**
**Dürdanə HÜMBƏTOVA**
filologiya üzrə fəlsəfə doktoru, dosent
durdanahumbatova@gmail.com

**Editor:**
**Durdana HUMBATOVA**
phd in philology, docent
durdanahumbatova@gmail.com

**Redaktor köməkçisi:**
**Səidə ƏHMƏDOVA**
seide-86@mail.ru

**Assistant editor:**
**Saidah AHMADOVA**
seide-86@mail.ru

**Dillər üzrə redaktorlar**

**Assoc. Prof. Dr.Aytac ZEYNALOVA**/ Azərbaycan dili
**Prof. Dr. Abbas ABBASOV**/ İngilis dili

**Language editors**

**Assoc. Prof. Dr.Aytaj ZEYNALOVA** / Azerbaijani language
**Prof. Dr. Abbas ABBASOV** / English language

**Elmi sahələr üzrə redaktorlar**

**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA /** Humanitar və ictimai elmlər
**Prof. Dr. Şəhla SƏMƏDOVA /** Humanitar və ictimai elmlər
**Assoc. Prof. Dr. Elza ORUCOVA /** Təbiət elmləri
**Dr. Fuad RZAYEV /** Təbiət elmləri
**Dr. Əli ZALOV/** Təbiət elmləri
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV/** Təbiət elmləri
**Prof. Dr. Yaşar MEHRƏLİYEV /** Dəqiq elmlər
**Assoc. Prof. Dr. Şahlar BABAYEV /** Texnika elmləri

**Editors in scientific fields**

**Assoc.Prof.Dr. Khatira HUSEYNOVA /** Humanities and social sciences
**Prof. Dr. Shahla SAMADOVA /** Humanities and social sciences
**Assoc. Prof. Dr.Elza ORUJOVA /** Nature sciences
**Dr. Fuad RZAYEV /** Nature sciences
**Dr. Ali ZALOV /** Nature sciences
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV /** Nature sciences
**Prof. Dr. Yashar MEHRALIYEV /** Exact sciences
**Assoc. Prof. Dr. Shahlar BABAYEV /** Technical sciences

## REDAKSİYA HEYƏTİ

**Humanitar və ictimai elmlər bölməsi**

**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Yerden KAJIBEK,** Qazax dili Akademiyası / Qazaxıstan
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin İqor Sikorski adına Kiyev Politexnik İnstitutu / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN,** Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Svetlana KOJIROVA,** L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Prof. Dr. Şəhla SƏMƏDOVA,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA,** Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Cihan ÖZDEMİR** Biləcik Şeyx Edəbali Üniversiteti / Türkiyə

**Prof. Dr. Müseyib İLYASOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlə İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxstan Milli Qadın Pedaqoji Univeristeti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Elza ALIŞOVA**, Girne Amerika Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖREA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV**, Xəzər Universiteti/ Azərbaycan
**Assoc. Prof. Dr. Afərin ABBASOVA**, Qərbi Kaspi Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şəfəq ABDULLAYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İlkin QULUSOY**, Qafqaz Universiteti/ Türkiyə
**Assoc. Prof. Dr.Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Rövşən RAMİZOĞLU**, SelcukUniversiteti / Türkiyə

## Təbiət elmləri bölməsi

**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Nikolay BRİKO** , İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof.Dr. İlham ŞAHMURADOV**, AMEA Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Zöhrab QARAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. İlham KAZIMOV**, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi / Azərbaycan
**Prof. Dr. İbadulla AĞAYEV**,Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Prof. Dr. Elxan NURİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti/ Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Dr. Xanzoda YULDAŞEVA**, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnklişafı Mərkəzi / Özbəkistan
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tedqiqat institutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytəkin AXUNDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zaman MEMMEDOV**, Institute of Soil Science and Agro Chemstry of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Busra BILAL,** Ali Jinnah Universiteti / Pakistan İslam Respublikası
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**Dr. Fuad RZAYEV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan

## Dəqiq elmlər bölməsi

**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV,** Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Yaşar MEHRƏLİYEV**,Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səadət KƏRİMİ**, Kral Texnologiya İnstitutu / İsveç
**Assoc. Prof. Dr. Tərxan CƏBRAYILOV**, Memarlıq və İnşaat Universiteti / Azərbaycan

## Texnika elmləri bölməsi

**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Assoc. Prof. Dr. Şahlar BABAYEV**,Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Assoc. Prof. Dr. Zəfər CƏFƏROV**, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti / Azərbaycan

# EDITORIAL STAFF


## Humanities and social sciences section

**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Erden Kajibek,** KazakhLanguage Academy/ Kazakhstan
**Prof. Dr. Irina KREIDYCH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Uugunbayar MYAGMARSUREN, Mongolian State University / Mongolia**
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr.Svetlana KOJİROVA,** L.N. Gumilyov Eurasian National University/ Kazakhstan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Shahla SAMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA,** Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Cihan OZDEMİR**, Bilecik Sheykh Edebali University / Turkey
**Prof. Dr. Museyib ILYASOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Elza ALISHOVA**, Girne American University / Turkey
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, Institute of Uzbek Language, Literature and Folklore of the Uzbekistan Academy of Sciences / Uzbekistan
**Assoc. Prof. Dr. Rashad HUSEYNOV**, Khazar University /Azerbaijan
**Assoc. Prof. Dr. Afərin ABBASOVA,** Western Caspian University / Azerbaijan
**Assoc. Prof. Dr. Shefeg ABDULLAYEVA**, Azerbaijan Universty of Language / Azerbaijan
**Assoc. Prof. Dr. Ilkin GULUSOY,** Kafkas University / Turkey
**Assoc. Prof. Dr.Garanfil GULİYEVA,** Baku State University / Azerbaijan
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**Dr. Rovshan RAMIZOGLU**, Seljuk University / Turkey

## Natural sciences section

**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Nikolai BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Duygu KILIC**, Amasya University / Turkey
**Prof.Dr. Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan
**Prof. Dr. Zohrab GARAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Ilham KAZIMOV**, Scientific Surgery Center named after M.Topchubashov / Azerbaijan
**Prof. Dr. Ibadulla AGAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Elkhan NURIYEV**, Baku State University / Azerbaijan
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Dr. Khanzoda YULDASHEVA**, Center for Professional Development of Medical Workers / Uzbekistan
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**,Cattle-breeding Scientific research institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**,Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr.Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytekin AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Zaman MEMMEDOV**, Institute of Soil Science and Agro Chemstry of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Busra BILAL,** Ali Jinnah University İslamic Republic of Pakistan
**Dr. Svetlana GORNOVSKAYA,** Beloserkovsk National Agrarian University / Ukraine
**Dr. Fuad RZAYEV**, Zoology Institute of ANAS / Azerbaijan

## Exact sciences section

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University/ Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Yashar MEHRALIYEV**, Baku State University / Azerbaijan

**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Saadat KARIMI**, Royal İnstitute of Technology / Sweden
**Assoc. Prof. Dr. Tarkhan DJABRAYILOV**, Azerbaijan Architecture and Construction University / Azerbaijan

**Technical sciences section**

**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Assoc. Prof. Dr. Zafar JAFAROV**, Azerbaijan State University of Architecture and Construction / Azerbaijan

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://www.doi.org/10.36719/2789-6919/2/7-10

**Çinarə İlham qızı Hüseynli**
Bakı Mühəndislik Universiteti
müəllim
chuseynli@beu.edu.az

## "QƏZƏB SALXIMLARI" ƏSƏRİNDƏ SOSİAL MƏSƏLƏLƏRİN TƏHLİLİ

**Xülasə**

Məqalə cəmiyyətdə və ailədə qadınların rolundan bəhs edir. Qadın və kişilər bərabər hüquqlu kimi görünsələr də, onlar arasındakı hüquq bərabərsizliyi həllini tapmayan problemə çevrilib. Əlbəttə, əvvəllər qadınlar kişilərlə eyni hüquqlara sahib deyildilər. Amma onların kişilər üzərində böyük rolu var idi. Buna nümunə olaraq Ana Coud obrazını göstərmək olar. O güclü və iradəli qadınları təmsil edir. Məqalə qadınların kişilərlə bərabər niyə eyni hüquqa sahib olmadığını və digər tərəfdən də onların bütün çətinliklərə qarşı necə güclü dayandığını araşdırır.
***Açar sözlər:*** *Böyük Böhran, miqrant, fermer, torpaq, sahibkar, sosial, iş*

**Chinara Ilham Huseynli**

## Analyzing the social relations in the "the grapes of wrath

**Summary**

This article deals with how migrants and farmers were affected as a result of the Great Depression. People had to leave their lands and begin a new journey hoping to find new places to get by and to work. Along this journey, they experienced lots of troubles due to the difficulties caused by the landowners. The novel shows us how cruel a man can be to another man. In the novel, several issues are highlighted, but this article mostly focuses on the social discrimation and its effects.
***Key words:*** *Great Depression, miqrant, farmer, land, landowner, social, work*

Con Steynbek 20-ci əsrdə yaşayıb-yaratmış müasir amerikan yazıçılarındandır. O 1962-ci ildə Nobel Mükafatını qazanmışdır. Əsərləri arasında Qəzəb salxımları xüsusi yerə malikdir və müəllifin şah əsəri hesab oluna blər. Roman ilk dəfə 1939-cu ildə çap olunub və Bədii Kitab nominasiyaı üzrə hətta Pulitzer mükafatına da layiq görülmüşdür. Con Steynbekin yaradıcılıq təcrübəsi ona bu əsəri Kaliforniyadakı Böyük Depresiyya dövründə Coud ailəsinin başına gələnləri ustalıqla qələmə almağa imkan verdi. Romanı bir növ tarixi və sosial movzuda yazılmış roman da hesab etmək olar çünki roman 1930-cu illərdə Amerikada sosial və tarixi dəyişikliklərin bütün təbəqələrdən olan əhalisinə necə təsir etdiyindən bəhs edir. Kitabı oxuduqca sadəcə Coud ailəsinə qarşı deyil həm də bütün miqrant fermerlərinə qarşı oxucuda mərhəmət hissi oyanır. Böyük Depressiyadan əziyyət çəkən əhalinin alt təbəqəsi öz yaşadıqları yerlərdən köçməyə məcbur qalırlar çünki artıq onların nə evləri nə də əkib becərməyə torpaqları qalıb. Coud ailəsi də bu ailələrdən sadəcə biridir.

İkinci Sənaye İnqilabı 20-ci əsrin əvvəlində Amerikada həyatı tamamilə silkələdi. Minlərlə insanlar fermer təsərrüfatlarını tərk edib yeni iqtisadiyyatın tələblərini qarşılamaq üçün böyük şəhərlərə köç etməyə məcbur qaldı. Zamanla, daha səmərəli iş praktikalarının və maşınların istifadəsi fermerləri yerlərindən didərgin salaraq kənd təsərrüfatını daha fərqli bir sahəyə çevirdi. Qəzəb salxımlarında da görürük ki, quraqlığın uzun müddət hökm sürməyi daha da inkişaf etmiş texnikaların

istifadəsinə ehtiyac duyurdu. Sənaye iqtisadiyyatı fermerlərə öz mənfi təsirini göstərdi, banklar buna daha da təkan verdi.

Əsərin qəhrəmanı Tom Coud həbsdə cəzasını çəkdikdən sonra şərti azadlığa buraxılaraq öz evinə qayıdır, amma həbsdə olduğu zaman ərzində həm onun ailəsi həm də Kaliforniya üçün çox şey dəyişmişdir. O görür ki, artıq ailəsi üçün burda yaşamaq çox çətindir. Nə maddi durumun çətinliyi, nə də elə sahibkarların mərhəmətsizliyi onlara buralarda, öz torpaqlarında yaşamağa imkan verməyəcəkdir. Artıq Tom və ailəsi yeni ümidlər axtarışındadır, yaşadıqları çətinliklərə baxmayaraq onların bir ailə kimi bir-birinə olan sıx bağlılığı və sevginin gücü sayəsində sağ qalmağa çalışırlar. Əlbəttə, bu o qədər da asan deyil, yeni bir həyat qurmaq üçün çıxdıqları yolda başlarına çox faciə gəlir. Coud ailəsi Kaliforniyaya köç edərkən onlar bir çox problemlərlə üzləşir, ölkədə sadəcə sənayeləşmə ilə bağlı böhran hökm sürmürdü, həmçinin insanlar hava şəraitindən, quraqlıqdan əziyyət çəkirdi. Bunlar ucbatından neçə-neçə miqrantlar işsiz qalmışdı və çarəsizcə yeni iş imkanları axtarışına düşmüşdü.

Steynbek dəfələrlə vurğulayıb ki, insanların çəkdiyi əziyyətlərin tək səbəbi pis hava şəraitindən qaynaqlanmır, onları öz vətənlərindən didərgin salanlar elə öz həmyerliləridir. Tarixi, sosial və iqtisadi dəyişikliklər insanları zəngin və kasıb, sahibkar və icarəçi təbəqələrinə bölmüşdür. Və bu insanlar da öz mövqelərini və əllərində olanı qoruyub saxlamaq üçün amansız mübarizə aparmalıdırlar. (6) Əslində, Con Steynbekin bu əsəri ABŞ-da kənd təsərrüfatında islahatların zəruriliyini ortaya qoymuş, çoxlarını düşünməyə vadar etmişdir. Bu romanda yazıçı iş tapmaq ümidi ilə bir yerdən başqa yerə köç edən, aclıq, səfalət və işsizlikdən əziyyət çəkən insanların iztirablı taleyini, faciəsini ürək ağrısı ilə qələmə alaraq onları bəşəri fəlakət kimi təsvir etmişdir. Şübhəsiz, buna görə də XX əsrin realist roman ənənələrinin 30-cu illərdəki ən mühüm əsərləri sırasında Con Steynbekin "Qəzəb salxımları" romanı xüsusi yer tutur. (2,6)

Əsərdə ən sevdiyim məqamlardan biri kitabda bədii təsvirlərdən daha çox hər kəsin istifadə etdiyi dildən istifadə olunub. Hətta dilin qrammatik qaydaları belə pozulub. O dövr elə bir dövr idi ki, insanların bədii ədəbiyyata marağı azalmışdı, demək ki bu sadəcə sosial-siyasi böhran deyildi. Ədəbiyyat sahəsində də böhrana rast gəlinirdi. Elə ona görə də Steynbek bu kitaba ikinci dəfə dəyişikliklər etdikdən sonra 1939-cu ildə çap etdirmişdir. Kitabın ikinci variantını bitirəndə yazıçı xüsusi vurğulayırdı ki, bu kitabı başqa kitablar kimi yazmayıb, həyatda necə varsa elə, bəzək-düzəksiz yazıb. (2,7)

Əvvəlcədən vurğuladğımız kimi Steynbek öz əsərində miqrant ailələrin və işçilərin onların torpağını ələ keçirən sahibkarlar tərəfindən necə istismar olunduğunu acı gerçəkliklərlə göstərir. Sahibkarlar bu torpaqları biznes mənbəyi, əlavə qazanc yeri kimi görür, amma onlar orda işləyən miqrant işçilərinin o torpaqlara ac qalmamaq üçün ehtiyacı olduğunun fərqinə belə varmırlar, ya da ki bu onlar üçün heç də önəmli deyil. Bu isə öz növbəsində böyük böhranlara və məşəqqətlərə gətirib çıxarır. Bu zaman isə Steynbek maraqlı fikrini ortaya qoyur. O düşünür ki; siyasi və mənəvi birliyin olmağı fermerlərin bu cür istismarının qarşısını alardı. (4) Nəticədə isə miqrantlar artıq dövlətə deyil, ancaq bir-birlərinə arxalanmağı öyrənirlər. Məsələn, ana obrazının ailəni bir yerdə saxlamağa çalışmağı, Tomun özünü daha çox düşünməyi, Rozanın materializmi və digər xarakterlərə xas olan xüsusiyyətlər həmin cəmiyyətdən də xəbər verir. Bəlkə də bu fərqlilik onları birləşdirir. (3) Əslində bu sadəcə təbəqələr arasındakı mübarizə deyildi, bu həm də zorakılığa məruz qalan insanların ləyaqətlərini və ailə dəyərlərini bir yerde qoruyub saxlamaq üçün apardığı bir mübarizə idi.

Steynbekin bu əsəri bu qədər canlı və realist yazmağının səbəbi özünün bu həyata tanış olmağı idi. O özü elə əsərdə də təsvir olunan miqrantların sığındığı çadırları tez-tez ziyarət edirdi. Əsərin dili də çox sadə bir dildə yazılıb və o dövrün həqiqətlərini ustalıqla qələmə aldığı üçün tez bir zamanda sadə xalq və işçi təbəqəsi tərəfindən sevildi və böyük maraqla qarşılandı, amma təbii ki bu durum biznes və hökumət işçilərini narahat etməyə bilməzdi. Onlar bunu kommunist propaqandası adlandıraraq kitaba senzura qoydular, xüsusilə Kaliforniyanın bir çox ərazilərində kitabın minlərcə nüsxəsini yandırdılar və kitabxana və məktəblərdə oxunmağına qadağa qoydular. Amma buna baxmayaraq, kitab ən çox satılan kitab oldu və 1940-cı ildə Pulitzer mükafatına layiq görüldü. Həmin ildə kitabın kino versiyası da çəkildi və hələ də sevilərək izlənilir. Əslində, bu kitab Steynbekin 1962-

ci ildə Nobel Mükafatı almağında da çox böyük rol oynadı. Müəllifi özü kitabı yazmaq səbəbini belə izah edir: "Mən buna [Böyük Böhrana və işçilərin acınacaqlı vəziyyətinə] səbəb olan acgöz şərəfsizlərin biyabır olmağını istəyərdim." (4)

Con Steynbek romanda dostluq, ailə birliyi, torpağa sevgi kimi bir neçə mövzunu işıqlandırır. Amma təbii ki insanların sosial vəziyyətinin nə qədər acınacaqlı olmağı bəlkə də əsərin əsas yazılma səbəbidir. Qəzəb salxımları ölkə ərazisində köç edərək özlərinə başqa torpaq və iş yeri tapmağa çalışan və hüquqları əlindən alınmış fermerlərin üsyanı idi. Kənd təsərrüfatında sənayeləşmənin artdığı bir dünyada cəmiyyət bu dəyişikliklərdən zərər çəkən insanlara kömək etməkdə heç bir maraq göstərmirdi. Bunun nəticəsində də bir neçə xarakterlər eləcə də baş qəhrəman Tom Coud artıq insan dəyərini və sosial münasibətlətin vacibliyini sorğulayır. (5) Cəmiyyət insan dəyərini öldürür, onları ucuz işçi qüvvəsinə çevirir, artıq hər kəs ancaq özü və sağ qalmağı barədə düşünür onun uğrunda mübarizə aparır. Yolu keçməyə çalışan tısbağa da bunu təcəssüm etdirən bir simvoldur. Tısbağa da insanlar kimi yolu keçmək üçün mübarizə aparır. Əslində, Steynbekin də bizə anlatmağa çalışdığı bu idi: insanlar öz mənafelərini düşünmək yerinə daha çox bir olmağa çalışsalar bu onların daha çox xeyrinə olacaq. Yəni vahid bir cəmiyyət daha yaxşı həyat standartları demək idi. Amma iqtisadi və sosial dəyisikliklərin gətirdikləri faciələr insanları pərən-pərən salır və daha da zərbə vuraraq evlərini, torpaqlara olan haqqlarını əllərindən alır və nəticədə evsiz qalırlar və iş tapmaq üçün köç etməyə məcbur qalırlar. 1930-cu illər Amerikada işsizlik dövrü idi, bu 1933-cu ildə ən yüksək həddə çataraq 25% olmuşdu. (1) Buna görə də Steynbek bürokratik təşkilatları, şirkətləri, bankları, və dövləti kəskin bir dillə günahlandırırdı, amma təəssüflər olsun ki əsərdə bunun üçün bir həll yolu göstərmirdi. Miqrant işçilərin və onların ailələrinin (300 minə qədər) yaşadıqları və işlədikləri acınacaqlı şəraiti göstərərkən Steynbekin vətənpərvərlik hisslərini qəzəb daha da gücləndirir.

Hər şey təbii ki gec ya da tez haqq etdiyi dəyəri görür. Yazıldığı ildə kommunist ədəbiyyatı damğası vurulan və oxunmasına qadağa qoyulan kitab Amerikan ədəbiyyatında öz təsirini göstərə bilmişdir və hətta kitabın yazılmasından 80 il keçməsinə baxmayaraq hələ də öz orijinallığını qorumaqdadır və dəfələrlə yenidən çap olunaraq satılmaqdadır. Əsər hələ də oxucuları tərəfindən sevilərək oxunur. Əsərin klassik əsər sayılması üçün deyilir ki, gərək özündən sonraki illərdə də öz orijinallığını qorusun. Amma başqa yöndən də düşünsək belə qənaətə gəlmək olar ki, klassik əsər olmaq üçün önəmli deyil ki neçə gələcək nəsil tərəfindən oxunulur, önəmli olan odur ki, ölkədə və dünyada baş verən həqiqətləri insanlara çatdırır və bu həqiqətlər müasir dövrdə də öz aktuallığını qoruyur. Eynilə, bədii klassika da insanların qayğılarını və bu qayğılara səbəb olan tarixi, sosial, iqtisadi, vəs. dəyişiklikləri hər dövrə uyğun aktuallığını saxlayaraq oxucularına çatdırır.

Bu baxımdan da Qəzəb salxımları gələcəkdən də xəbər verir çünki o sadəcə Böyük Böhranın səbəb olduğu iqtisadi və sosial faciədən bəhs etmir, həmçinin günümüzün də acı gerçəkliklərini birbaşa oxucularına çatdırır. Qlobal iqtisadi böhranın hökm sürsüyü bir dövrdə yazılan əsərin bizə çatdırmağa çalışdığı problemlər 21-ci əsrin problemləri ilə eynilik təşkil etdiyi üçün bu əsəri müasir dövrümüzün də Qəzəb Salxımları hesab edə bilərik. Çünki indi də dünyada acgözlük, vəzifəsindən sui-istifadə edərək pul mənimsənilməsi, aşağı təbəqə insanlarının əməyindən istifadə etmək və s. kimi məsələlərin səbəb olduğu maliyyə böhranına rast gəlinir. Yenə də kasıblar və varlılar arasında aşılmaz fərqlər var, hələ də ABŞ-da və yaxud digər ölkələrdə borclarını qaytara bilmədiyinə görə insanların mal varlığına əl qoyulur, hər şeyləri əllərindən alınır. Böyük şəhərlərdə evsiz insanlar üçün sığınacaqlar və çadırlara rast gəlmək mümkündür, necə ki kitabda da torpaqları və evləri əllərindən alınmış insanlar çarəsizcə bu cür sığınacaqlardan yardım umurdular.

Böyük yazar olan Steynbekin kitabla bizə demək istədikləri bununla bitmir. O həyatı boyunca - 1960-cı illərə qədər də insanların rifahı naminə, daha yaxşı həyat tərzi naminə mübarizə aparmışdır. O bu mübarizəni Amerikanın yaxşılığı naminə aparırdı, öz əsərləri ilə də dəfələrlə materializmin belə bir cəmiyyətdə daha önəmli olması faktorunun nə qədər təhlükəli olmasına dair xəbərdarlığını etmişdi.

Steynbek Qəzəb Salxımları ilə miqrantlarla sahibkarlar arasında olan iqtisadi tənəzzüldən qaynaqlanmış böyük bir sinif fərqini bizə ürək ağrısı ilə açıq-aşkar göstərə bilir. Əsərdə tək fermerlərin deyil də, Kaliforniyadaki sahibkarların qorxusunu da anlamaq olur. Onlar işçilərin iş və

torpaq axtarmaq üçün etdiyi köçdən qorxurdular. Amerika tarixini araşdırdıqda da məlum olur ki, o ərazilərdə həmişə torpaq uğrunda mübarizə olub. Necə ki onlar Kaliforniyanı meksikalıların əlindən silah gücü ilə almışdılar, indi də onlar narahat idi ki fermerlər onların əlində torpaqları bu yolla alar. Steynbek bunu bu cür təsvir etmişdi: "və onlar oğurladıqları torpaqlara əllərində silah keşik çəkirdilər" (2, 231) Böyük şirkətlər kiçik fermerlərin torpaqlarını mənimsədikcə, və sahibkarların sayı azaldıqca, işçilərin əməyindən sui-istifadə olunur, daha az əmək haqqına işləyirdilər, bəzən hətta öz sahibkarlarına borclanırdılar. Elə bu vəziyyətə son qoymaq üçün insanlar iş üçün qərbə köməyə başladılar. Bu torpaqların sahibkarları da bu miqrantlardan qorxurdular, öz keçmişlərindən də bilirdilər ki, miqrantlar onların torpağını ələ keçirə bilər. "əgər qəzəbli və acsansa, üstəlik də silahlısansa başqasından torpağı almaq çox asandır." (2.233) Sadəcə sahibkarlar deyil, ticarətçilər də miqrantlardan qorxurdular. Onların artması ticarətçilər üçün heç bir kapital qazandırmırdı. Bütün bu qorxular bir növ irqçiliyin əsasını qoyurdu: "Onları nəzarətdə saxlamaq lazımdır yoxsa təkcə Tanrı bilir ki onlar nə edə bilərlər! Axı niyə, Tanrım! Onlar cənubdakı qara dərililər qədər təhlükəlidir! Əgər onların hamısı birləşsə, "onları" heç nə saxlaya bilməz. (2,236) Əgər bir milləti məhv etmək istəsə idim onlara daha çox verərək onları daha miskin, acgöz hala gətirib diz çökdürə bilərdim, deyə Steynbek 1966-cı ildə yazmışdı. (1) Əlbəttə indi Steynbek sağ olsa idi və onun narahat olduğu məsələlərin hələ də tam olaraq həllini tapmadığını görsə idi nece reaksiya verərdi bilmirik amma əminliklə deyerdi ki, mən sizə axı demisdim. (1)

Deməli, Steynbek əslində insan şəxsiyyətini formalaşdırmaq üçün torpaqdan bir növ istifadə edirdi. Yəni ki, torpaq insanı insan edir, torpaq insanın keçmişidir, torpaq insana gələcək verir. Əgər insan torpağını, vətənini itirsə, onun insan olaraq da dəyəri qalmır, şəxsiyyəti də yox olur. Steynbeke görə torpağın da ruhu var, və torpağın insanlar üçün etdikləri onlara həyatı daha yaxşı başa düşməyə imkan yaradır. Torpaq fermerlərə müdriklik bəxş edir; onları daha yaxşı düşünməyə və qərar verməyə sövq edir. Amma traktorların ruhsuzluğu və sahibkarların mərhəmətsizliyi fermerlərin öz torpaqları ilə əlaqəsini kəsməyinə səbəb olur. Və onların azadlığını əllərindən alır. Demək ki, torpaq və ağır əmək insanlar üçün azadlıq deməkdi. Təbiət insanlara həyat verir, təbiət insanlara həyatın mənasını bəxş edir, təbiət insana dəyər qatır. Fermerlər üçün müasirləşmə və sənayeləşmə sadəcə onların həyat tərzini dəyişmədi, həmçinin torpağa olan bağlılıq münasibətlərinə də son qoydu.

## References

1. BBC News. "Grapes of Wrath, a classic for today?". April 14, 2009. Retrieved August 26, 2013.
2. Con Steynbek. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 888səh.
3. John Steinbeck. The Grapes of Wrath. The USA. Penguin Classics. 2006. 464 pages
4. https://www.britannica.com/topic/The-Grapes-of-Wrath#ref340968
5. https://www.enotes.com/homework-help/what-common-themes-used-john-steinbecks-novels-290589
6. https://www.sparknotes.com/lit/grapesofwrath/themes/
7. https://www.science.smith.edu/climatelit/the-grapes-of-wrath/
8. https://www.britannica.com/topic/The-Grapes-of-Wrath-film-1940#ref1078811

Göndərilib: 4.11.2020 Qəbul edilib: 26.01.2021

DOI: https://www.doi.org/10.36719/2789-6919/2/11-14

**Gülgəz Altay qızı Bəndəliyeva**
Xəzər Universiteti
magistrant
bendeliyevagulgez@gmail.com

# ŞAGİRD MOTİVASİYASININ YÜKSƏLDİLMƏSİ

**Xülasə**

Araşdırmada mövzuya aid müxtəlif ədəbiyyatlar nəzərdən keçirilərək motivasiya haqqında ümumi məlumat verilmişdir. Dörnyei (2001) araşdırmasına əsasən motivasiyanın necə yaradıldığı, necə artırılacağına aid üç mərhələsi haqqında danışılmışdır. Gorhan və Christopher (1992) araşdırmasına əsasən müəllimin motivasiyanı azaldan davranışları haqqında danışılmışdır. Sonda isə motivasiyanın növləri olan daxili, xarici və müvəffəqiyyət motivasiyası xarakterizə edilmişdir.

Son illərə aid mövzu ilə əlaqəli çoxlu tədqiqatlar mövcuddur. Bir neçəsini misal göstərmək olar: Smith, Darves (2017). Encouraging student autonomy, through higher order thinking skills; Göğüş, Yetke. (2014). Öğretmen Yontemlerinin Çeşitlendirilmesi ile öğrenci motivasiyonunun artırılması; Vatansever Bayraktar, (2015), Sınıf yonetiminde öğrenci motivasiyonu ve motivasiyonu etkileyen etmenler; və başqaları.

Bu çalışmanın əsas məqsədi: motivasiya haqqında müəyyən ədəbiyyatları nəzərdən keçirərək, müxtəlif təcrübələrlə tanış olaraq motivasiyaya aid bəzi məqamları qeyd etmək və müəllimlərə bu sahədə müəyyən qədər kömək etməkdir.

***Açar sözlər:*** *motivasiya, şagird, davranış, müəllim, dərs*

**Gulgaz Altay Bandaliyeva**

## Encouraging student motivation

**Summary**

The study provides an overview of motivation by reviewing various literature on the subject. According to Dornyei's (2001) study, there are three stages in how motivation is created and how it is increased. According to a study by Gorhan and Christopher (1992), teachers' motivational behaviors are discussed. In the end, the tayps of motivation internal, external and motivation for success are characterized.

There is a lot of research on the subject in recent years. Here are a few examples: Smith, Darves (2017). Encouraging student autonomy, through higher order thinking skills; Göğüş, Yetke. (2014). Increasing student motivation by Diversifying Teacher Methods; Vatansever Bayraktar, (2015), Student motivation and factors affecting motivation in classroom management; and others.

The main purpose of this study: reviewing certain literature on motivation, getting acquainted with different experiences, noting some points related to motivation and helping teachers to some extent in this field.

***Key words:*** *motivation, student, behavior, lesson*

## Giriş

Psixologiyada davranışı anlamında motivasiya müəyyən bir hədəfə doğru, müəyyən bir məqsədi olan davranışlardır və bu içdən gələn təkidlər nəticəsində yaranır. (Vatansever, 2015).

Hal-hazırda motivasiya təhsildə aktual mövzulardandır.

Məktəbdə tədris kurikulum əsasında aparılır və kurikulumda fəal dərsin birinci mərhələsi motivasiyadır. (Hüseynova, 2020).

Motivasiya "hərəkət etmək" mənasındadır. Latınca "movere" sözündən gəlmişdir. (Arıkboğa, 2010).

Motivasiya daxili psixoloji güc olaraq insanı fəallaşdırır, müəyyən formada davranmağa, hərəkət etməyə sövq edir. ( İsgəndərov, 2017).

Morgan (2005), motivasiyanı, müəyyən bir davranışa hərəkətverici qüvvə olaraq izah etmişdir.

Motivasiyanın şagirdlərin uğurlu olmasında xüsusi rolu vardır. Şagirdlərin öyrənməyə marağını artırmağa, öyrənmədən zövq almalarını təmin edir. (Pintrich, 2003; Göğüş, Yetke, 2014).

Martin (2007) şagirdlərin motivasiyasına təsir edən bir çox amil göstərmişdir: bunlar şagirdin valideynləri, müəllimlər ilə münasibətləri, sinif ortamı, sosial vəziyyətləri, cinsiyyət, yaş kimi bir çox amillərdir. (Göğüş, Yetke, 2014).

Şagirdlərin hansı vəziyyətdə diqqətini cəlb etməyi müəyyən etmək çox da asan deyil. Ancaq öyrənmə prosesində müəllim şagirddə maraq oyadacaq, müxtəlif fəaliyyətlərdən istifadə edərək şagirdləri hərəkətə gətirəcək, şagirdlərin gücünə uyğun, uğurlu və uğursuz vəziyyətlər yaradaraq motivasiyanın yaranmasını təmin edə bilər. (Ünsal, 2012).

## Motivasiyanın yaradılması və artırılması

Dörnyei (2001) sinifdə motivasiyanın nəyin yaratdığını və necə artırıla bilməsi üçün üç mərhələ müəyyən etmişdir.

1.Dərsi başlayan zaman motivasiya yaratmaq;

2.Dərs müddətində motivasiyanı qorumaq, davam etdirmək;

3.Geriyə dönük, faydalı özünüqiymətləndirməyə təşviq etmək.

Bu üç mərhələnin də öz növbəsində bir neçə prinsipləri var.

Dərsə başlayan zaman motivasiya yaratmaq

1.Öyrənənin dil dəyərlərini və münasibətlərini inkişaf etdirmək;

2.Şagirdin uğurlu olacağına dair gözləntiləri artırmaq;

3.Şagirdin məqsədyönlülüyünü artırmaq;

4.Materialları öyrənənlər üçün mənalı etmək;

5.Öyrənənlərdə real fikirlərin yaradılması.

Dərs müddətində motivasiyanı qorumaq, davam etdirmək.

1. Şagirdin ilkin hədəfə olan bağlılığını artırmaq üçün nəzarət strategiyaları;
2. Konsentrasiyaya nəzarət etmək və nəzarət etmək üçün metokoqnativ nəzarət strategiyaları;
3. Darıxdırıcı ortamı aradan qaldırmaq və daha çox diqqəti cəlb etmək üçün məmnunluğa nəzarət strategiyası;
4. Şagirdin fikrini dağıdan emosional əhval-ruhiyyəni idarə etmək üçün duyğu nəzarət strategiyaları;
5. Ətraf mühitin mənfi təsirlərini aradan qaldırmaq və müsbət təsirlərdən faydalanmaq üçün ətraf mühitə nəzarət strategiyaları.

Geriyə dönük, faydalı özünüqiymətləndirməyə təşviq etmək.

1. Müvafiq motivasiya edən geri bildirdim funksiyaları qənaətbəxşdir;
2. Motivasiyalı əks əlaqə, inam və təşviq ünsiyyəti təmin edərək şagirddə müsbət mənlik qavrayışı və özünə inamı təmin edir;
3. Motivasiya xarakterli əks əlaqə məlumatverici olmalıdır və öyrənəni yaxşılaşdırma ehtiyacı olan sahələrdə konstruktiv düşünməyə sövq etməlidir. (Göğüş, Yetke, 2014).

Müəllimlərin motivasiyanı azaldan davranışları

Gorham və Christopher (1992) müəllimlərin motivasiyanı azaldan davranışlarının motivasiya artıran davranışlardan daha çox təsirli olduğunu müəyyən etmişlər. Müəllimlərin şagirdlərin motivasiyanı azaldan davranışlarını dörd qrupa ayırmışlar.

1. Müəllimin şagirdlərin səviyyəsini müəyyən edə bilmək üçün kifayət qədər dərs materialları haqqında məlumatı yoxdur; sinifdə nizam - intizam yoxdur; müəllim sinfə gec gəlir; məlumat əskikliyi var; dərsi vaxtından tez bitirir; dərsə hazırlıqsız gəlir.

Bu kateqoriyaya görə müəllim məlumatsız, məsuliyyətsizdir və ya dərslik nəzarəti altında deyil.

2. Müəllimin dil qüsuru var, mövzudan kənara çıxır, təqdimat bacarığı yaxşı deyil; mizah anlayışı yoxdur; çox nümunə verir və həvəssizdir.

3. Şagirdlərə fərdi yanaşma olmaması; duyğusuzlaşma; şagirdlərə dəyər verməmə kimi münasibət göstərmə; şifahi və yazılı şərhləri nəzərə almama; şagirdlərə uzaq və soyuq davranma; çox ciddi yanaşma; ədalətsizlik; yardımsevər olmamaq; yalnız çox fəal olan şagirdlərə diqqət ayırma; süni və ya hörmətsizlik göstərən müzakirə.
4. Neqativ şəxsiyyət görünüşü. (Sürücü; Ünal, 2018).

## Daxili, xarici və müvəffəqiyyət motivasiyası

Motivasiyanın üç əsas növü müəyyənləşdirilmişdir: daxili, xarici və müvəffəqiyyət motivasiyası.

Müxtəlif motivlərə fərqli proqnozlar verilir.

Müvəffəqiyyət motivasiyası yüksək olan şagirdin daha yüksək nəticələr əldə edəcəyi düşünülür. Daxili motivasiyalı şagirdlərin isə xarici motivasiyalı şagirdlərdən daha yaxşı performans göstərəcəyi gözlənilir.

Daxili motivasiyalı şagirdlərin xarici motivasiyalı şagirdlərə nisbətən materialı daha dərindən başa düşməsini və ruh düşkünlüyünə qarşı daha davamlı olmasını gözləmək olar. (Fry, Ketteridge, Marshall, 2009).

Girmus (2011) yazır: "Daxili motivasiya, insanların müəyyən bir axtarışda üstün olmalı olduqları daxili ehtirası təmsil edir. Xarici motivasiya, pul və ya sosial status kimi xarici mükafatlara çatma istəyini təmsil edir."

Daxili motivasiya şəxsən olan motivasiyadır, xarici motivasiya isə fərdin cəzadan çəkinmə ehtiyacından irəli gələn motivasiyadır. (Smith, Darves, 2017).

Entwistle və Ramsden (1983) öyrənməyə dərin və səthi yanaşmalar arasındakı fərqə yönəlmiş tədqiqat aparmışlar.

Dərin yanaşma materialın hərtərəfli şəkildə başa düşülməsi və mövcud məlumatların daxil edilməsidir. Dərin yanaşmalar daxili motivasiya ilə əlaqələndirilir.

Səthi yanaşma başqa bir kontekstdə çoxaltmaq niyyəti ilə materialı dəqiq öyrənmə ilə xarakterizə olunur. Səthi yanaşma xarici motivasiya ilə əlaqələndirilir. (Fry, Ketteridge, Marshall, 2009).

## Nəticə

Bu araşdırmada motivasiya haqqında bəhs edilmişdir. Sinifdə motivasiyanın necə yaradılacağı və necə inkişaf etdirilməsinə aid Dörnyei (2001) müəyyən etdiyi üç mərhələ haqqında məlumat verilmişdir. Motivasiyanın yaxşı qurulması üçün müəllimdə hansı davranışlar olmamalı olduğu müəyyən edilməyə çalışılmışdır.

Araşdırmanın nəticələri incələndikdə Gorham və Christopher (1992) və digərlərinin müəyyən etdikləri müəllimlərin motivasiyanı azaldan davranışlar əsas problem kimi müəyyən edilmişdir. Bu davranışlar nəticəsində dərsin keyfiyyəti aşağı olacaq və heç bir müsbət hal olmayacağı mümkündür. Bu halların qarşısını almaq üçün müəllimlik vəzifəsini yerinə yetirən şəxslərə bu barədə təlimlər keçilməsi və müəllimlər işə qəbul olunarkən motivasiya bacarıqlarının yoxlanılmasının təmin edilməsi problemin aradan qaldırılmasına kömək vasitəsi kimi düşünülür.

## References

1. Vatansever Bayraktar, H. (2015). Sınıf Yönetiminde Öğrenci Motivasiyonu ve Motivasiyonu Etkileyen Etmenler. International Periodical For The Languages, Literature and History of Turkish or Turkic, 10 (3), 1079-1100.
2. Hüseynova, G. (2020). Bakı Peşəkarlıq Akademiyası. Kurikulum, 7, 108-110.
3. Arıkboğa Ş. (2010). İstanbul üniversitesi açık ve uzaktan eğitim fakültesi. Yönetim ve Organizasyon, 245-271.
4. İsgəndərov, I. (2017). Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Turizm və Menecment Universiteti. Təşkilati davranış və menecment psixologiyası, dərs vəsaiti, 2, 44-65.
5. Morgan T.C. (2005). Psikolojiye giriş. Eğitim akademi, 19.

6. Göğüş A., Yetke Ş. (2014). Öğretme Yontemlerinin Çeşitlendirilmesi ile Öğrenci Motivasiyonu Artırılması: Ingilizce Dersi Öğretmen Liderliyi Örneği. Uludağ Universitsi Eğitim Fakültəsi Dergisi, 27 (2), 283-305.
7. Ünsal Ü. (2012). Hamarlanmış Öğrenmenin Başarı ve Motivasiyona Etkisi. Türk Eğitim Bilimleri Dergisi, 10(1), 1-27.
8. Sürücü A., Ünal A. (2018). Öğrenci Motivasiyonu Artıran ve Azaltan Öğretmen Davranışlarının İncelenmesi. Uluslarası Toplum Araştırmaları Dergisi, 8 (14), 255-295.
9. Fry H., Kettweridge S., Marshall S. (2009). A handbook for teaching and learning in higher education. Routledge, 13, 27-40.
10. Victoria D, Smith., Janet, W Daruas. (2017). Encouraging Student Autonomy Through Higher Order Thinking Skills. Journal of Instructional Research, 6, 29-34.

Göndərilib: 6.11.2020 Qəbul edilib: 27.01.2021

DOI: https://www.doi.org/10.36719/2789-6919/2/15-18

**Nərmin Raiq qızı Ağayeva**
Bakı Dövlət Universiteti
magistrant
nerminagayeva333@gmail.com

# ERMƏNİSTAN TƏRƏFİNDƏN İŞĞAL EDİLMİŞ AZƏRBAYCAN ƏRAZİLƏRİNDƏ BEYNƏLXALQ HÜQUQA ZİDD CİNAYƏTLƏRİN TƏSNİFATI

**Xülasə**

Qafqaz regionunu daim gərginlikdə saxlamaq məqsədilə ermənilərin beyninə "Böyük dövlət" yaratmaq ideyası sindromunu həmişə müəyyən dövlətlərin örtülü siyasəti olmuşdur. Odur ki, erməni terroru bu gün də həmin maraqların, "ikili standartların" latent ifadəsinə çevrilmişdir. Rus tarixçisi Nikolay Şavrov "Zaqafqaziyada Rusiya işlərinə yeni təhlükə" adlı kitabında qeyd edir ki, 1864-cü ildə Qafqaz idarələrində çoxluq təşkil edən erməni və gürcülərdə millətçilik fəaliyyəti oyandı. Erməni və gürcü çarlıqlarını yenidən dirçəltmək ideyası Londonda onların rəhbər şəxslərinin beyninə yeridildi. Bu, əslində tarixi torpaqlara malik olmayan ermənilərin Zaqafqaziyada mümkün qədər daha çox ərazi ilhaqına həvəsləndirilməsi idi. Sonralar isə "dənizdən-dənizə Ermənistan" yaratmaq ideyası "Daşnaksütyun" partiyasınınəsas ideyasına çevrildi. 1890-cı ildə Tiflisdə erməni millətçi partiyası kimi yaradılan "Daşnaksütyun" Türkiyə ermənilərinin azad edilməsi, Rusiya və Türkiyə ermənilərinin "Vahid, ümumi "vətəni" – "Böyük Ermənistan" yaradılması kimi avantürist ideya irəli sürərək, təbliğata başlamışlar.

***Açar sözlər:*** *Dağlıq Qarabağ, hüquqa zidd, təcavüzkar, işğalçı, terror*

**Narmin Raig Aghayeva**

## Classification of crimes against international law in the territories of Azerbaijan occupied by Armenia

**Summary**

The syndrome of the idea of creating a "Great State" in the minds of Armenians in order to keep the Caucasus region under constant tension has always been a covert policy of certain states. That is why Armenian terrorism has become a secret expression of these interests, "double standards". Russian historian Nikolai Shavrov, in his book "A New Threat to Russian Affairs in the Caucasus", states that in 1864 the nationalist movement awakened in the Armenians and Georgians, who formed the majority in the Caucasus administrations. The idea of reviving the Armenian and Georgian kingdoms was planted in the minds of their leaders in London. This was actually to encourage the Armenians, who did not have historical lands, to annex as much land as possible in the Caucasus. Later, the idea of creating "Armenia from sea to sea" became the main idea of the Dashnaksutyun party. Founded as an Armenian nationalist party in Tbilisi (Georgia) in 1890, Dashnaksutyun began its propaganda with the adventurous idea of liberating Turkish Armenians and creating a "single, common" homeland" of Russian and Turkish Armenians. Greater Armenia".

***Key words:*** *Nagorno-Karabakh, illegal, aggressor, occupier, terror*

## Giriş

Görkəmli tarixçilər İ.Dyakonov, V.Piotrovski və başqaları zorla qədim tarix yaratmaq istəyən saxtakar erməni alimlərini dəfələrlə ifşa etmişdilər. Lakin Z.Balayan, S.Xanzadyan, S.Ayvazyan və başqa millətçi erməni yazarları Azərbaycanı, İranın bir hissəsini, Türkiyənin xeyli hissəsini, Gürcüstanın bir hissəsini (Tiflislə birlikdə), Quzey Qafqazı, Rostovu və Voronejə qədər əraziləri öz tarixi torpaqları kimi qələmə verirlər. Z.Balayanın 1990-cı il yanvarın 18-də SSRİ Müdafiə Nazirliyində çıxışında bu istiqamətdə qurmuşdur. Erməni müəlliflərindən biri Bakunts Ananikyan öz əsərində "Daşnaksütyun" terrorçu təşkilatının əsl mahiyyətini açmışdır. Onun "Daşnaksütyun"

partiyasının ideya-siyasi iflası" adlı kitabı rus dilində İrəvanın "Haystan" nəşriyyatı tərəfindən 1979-cu ildə nəşr edilmişdir. Kitabda bildirilir ki, "Daşnaksütyun" nəinki başqa xalqlara, hətta ermənilərin özünə də ziyan vurmuşdur. 1890-1920-ci illər ərzində çoxlu qanlı fitnələr törətmişdir. Erməni tarixçisi A.Lalayan "Əksinqilabçı "Daşnaksütyun" və 1914-1918-ci illərin imperialist müharibəsi" adlı məqaləsində qeyd edir ki; "Bu partiya sadəcə olaraq çarizmin oventurasıdır."

Erməni jurnalisti Q.Kotoyan 1986-cı ildə "Arqumenti "Qonaqsevərlik qanunlarını pozaraq" adlı mə- qaləsində qeyd etmişdir ki, 1957-ci ildən başlayaraq İrəvanda oxumağa gələn (20 ölkədən 700 nəfər) tələbələr arasında daşnak təbliğatı aparılır. Burada xalqların dostluq və qardaşlığına böhtan atırlar, tarixi saxtalaşdırırlar və ərazi iddiaları irəli sürürlər. Çoxsaylı tarixi faktlar, məhkəmə materialları Ermənistanın terrorçu dövlət olduğunu sübut edir. Məsələn: Parisdə Orli aeroportunda 8 nəfərin ölümü və 50 nəfər insanın yaralanması ilə nəticələnən terror aktına görə erməni Varosyan və Qarabedyan həbs edilmişdir. Məşhur terrorçu, "ASALA-nın inqilabi hərəkatı" qruplaşmasının rəhbəri 1981-ci ildə Türkiyənin Romadakı səfirinə sui-qəsd etdiyinə görə erməni Monte-Melkolyan həbs edilmişdir. Həmin il, yəni 1981-ci ildə Parisdə Türkiyə səfirliyinə basqının təşkilatçısı Vazgen Sislyan 1992-ci ildə İrəvandan Xankəndinə göndərilmişdir. Robert Koçaryan isə ona "Qarabağ müharibəsinin qəhrəmanı" adını vermişdir. Erməni terror təşkilatlarının adlarına və fəaliyyətinə nəzər salaq: - "Armenakan" partiyası: 1885-ci ildə yarandı. Türkiyənin Van, Muş, Bitlis, Trabzon bölgələrində və İstanbulda terror aktları törətməklə yanaşı, İran və Rusiyada yaşayan ermənilərlə əməkdaşlıq edirdilər. - "Qnçaq" partiyası 1887-ci ildə Cenevrədə yaradılıb. Qurumun əsas məqsədi Türkiyənin Anadolu bölgəsini, "Rus və İran Ermənistanları" adlandırdıqları əraziləri birləşdirməklə "Böyük Ermənistan" yaratmaq olmuşdur. (1,s.105) Erməni terrorçuları tarixdə ən böyük cinayətləri məhz Azərbaycan xalqına qarşı törədiblər. Nəticədə minlərlə həmvətənlərimiz həlak olub, əlil olub, əsir düşüblər. Onlar terror hadisələrini əsasən avtobuslarda, yük və sərnişin qatarlarında, hava yollarında, Bakı metropolitenində mülki şəxslərə və hərbiçilərə, mülki və Dövlət obyektlərinə qarşı törətmişlər. 1988-1993-cü illər ərzində ermənilər tərəfindən azərbaycanlılara qarşı 354 terror aktı törədilmişdir. Nəticədə 1427 nəfər azərbaycanlı həlak olmuşdur, 3137 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. Həmin dövrdə həyata keçirilmiş terror hadisələrindən 10-u sərnişin avtobuslarında (68-132), 10-u dəmir yolu nəqliyyatlarında (74-125), 3-ü hava nəqliyyatında (34-104), 2-si Bakı metropolitenində (14-49), 1-i isə su nəqliyyatında (25-88) törədilmişdir. Yuxarıda qeyd olunanlarla yanaşı, Dağlıq Qarabağ müharibəsi dövründə (1988-1994) Azərbaycanın 20% (17 min km2) torpaqları işğal olunmuşdur. 20 mindən çox vətəndaşımız qətlə yetirilmişdir. 50 mindən çox azərbaycanlı yaralanmışdır. Minlərlə azərbaycanlı hələ də itkindir. (2, s.97)

Erməni terroru nəticəsində xalqımıza dəyən ziyanı sadalamaqla qurtarmaz". Təəssüf ki, Ermənistanın Azərbaycana qarşı genişmiqyaslı təcavüzü nəticəsində xalqımızın verdiyi qurbanların, itkilərin sayı vəxarakteri barədə dünya ictimaiyyəti hələ də tam təsəvvürə malik deyil. Artıq lokal qarşıdurma miqyasından çoxdan çıxmış bu münaqişə uzun müddətli və qanlı hərbi, etnik münaqişəyə çevrilmişdir. Münaqişənin əsasında konfessional yox, etnik amillər durur. Konfliktin qaynaqları Ermənistanın siyasi müstəmləkəçiliyi və ərazi işğalları ilə bağlı olub, başlıca məqsədi hərbi güc tətbiq edilməsi yolu ilə digər müttəfiq respublikanın-Azərbaycanın ərazisinin bir hissəsinin ələ keçirilməsinə yönəlmişdir. Ermənistanın bu qara niyyətləri faktiki olaraq keçmiş SSRİ rəhbərliyi tərəfindən dəstəklənirdi. Məhz həmin rəhbərliyin ermənipərəst mövqeyi və dəstəyindən istifadə edən DQMV icra strukturları antikonstitusiya xarakterli aktlar qəbul etmişdilər ki, bunlar Ermənistanın Azərbaycana qarşı genişmiqyaslı hərbi aksiyalara başlamasının başlıca səbəbləri olmuşdur. Münaqişə başlayarkən Azərbaycan və Ermənistan Sovetlər İttifaqının tərkibində olduğu üçün onu SSRİ çərçivəsində həll etməyə çalışırdılar.

1991-ci il sentyabrın 25-də Əsgəran rayonunda Ağbulaq kəndi atəşə məruz qalır. Milis əməkdaşlarından Mehdiyev şəhid olur, Qarayev isə ağır yaralanır; Xankəndi ərazisində sərnişin avtobusu atəşə tutulur, sürücü Zeynalov həlak olur, ikinci sürücü A.Əliyev yaralanır, vilayət prokurorluğunun müstəntiqi S.Səfərov aldığı yaradan yerindəcə dünyasını dəyişir. Şuşa rayon daxili işlər şöbəsi mövcud vəziyyətlə əlaqədar funksiyasını dəyişmişdi. Şuşa milisi bilavasitə şəhərdə, rayonda asayişi, qanunçuluğu qorumurdu, əldə silah döyüşmək, girovların azad edilməsi, ekstremist,

separatçı ünsürlərin tutulub həbs olunması da şöbənin işinə daxil idi. Əməliyyat qrupunun, şəxsi heyətinin hər bir üzvü hər gün bir döyüşçu kimi işə çıxırdı. Dəfələrlə mühasirəyə də düşmüşdülər, girov götürülmək təhlukəsi ilə uzləşmişdilər, polkovnikin peşəkarlığı və tədbirli olması nəticəsində sağ-salamat qurtulmuşdular. Elə polkovnikin özünü də dəfələrlə girov götürməyə cəhd etmişdilər. Meşəli kəndinin ətraf kəndlərlə, şəhərlə əlaqəsi tamam kəsilmişdi. Təpədən dırnağa qədər silahlanmış erməni kəndlərinin əhatəsində, mühasirədə qalmışdı. Silahsız kənd camaatı qorxu-təlaş içində yatıb dururdu. Xankəndində yaşayan azərbaycanlılar sıxışdırılır, kütləvi surətdə işdən qovulurdu. Bu işlərin başında duranlardan biri və birincisi, təşkilatçısı və ilhamçısı, Stepanakert ipək kombinatının direktoru R.Köçəryan idi (sonralar Ermənistan prezidenti oldu). Dağlıq Qarabağda azərbaycanlıların sayı azalmışdı. Onların yerinə kənardan ermənilər kənd təsərrüfatı işlərində kömək adı ilə gətizdirilir, pasport qeydiyyatına alınırdı. Ermənistan vətəndaşı olan ekstrimistlərin, "boyevik"lərin hesabına əhalinin sayı süni surətdə artırılırdı. (3,s.114).

Xankəndində mitinqlər Yerevandan gələn emissarlar tərəfindən bir ssenari üzrə təşkil olunurdu. Mitinqçilərə yemək-içmək verilir,isti qış geyimləri paylanılırdı. H.Poqosyan, Z.Balayan, S.Kaputikyan, R.Koçəryan, V.Dadamyan, S.Manuçarov və başqaları ekstrimist çıxışlar edirdılər. "Dağlıq Qarabağ Ermənistanla birləşməlidir!", "Ana Ermənistan, Arsax səninlə birləşməlidir" kimi separatçı şüarlar səsləndirilirdi. Mitinqlərin ilk günlərindən SSRİ Ali Sovetinin sədr müavini Demiçev və MK-nin katibi Razumovskinin rəhbərliyi ilə Xankəndinə (Stepanaket) ezam olunmuş nümayəndə heyəti erməni ekstrimistlərinin bu antikonstitusion fəaliyyətlərinə seyrçi mövqedən yanaşır və mitinqçilərin təhlükəsizliyinin təmin olunmasını hüquq mühafizə orqanlarından tələb edirdilər. (4, s.86). Qarabağ hadisələri başlanandan ermənipərəstliyi ilə seçilənRusiya mətbuatı da Azərbaycan əleyhinə sistemli, ardıcıl şəkildəməqalələr çap edir, azərbaycanlıların düşmən obrazını yaratmağa çalışırdı. DQMV Dİİ-də Daşnaksütyunun hökmü keçirdi. "Krunq" təşkilatı da fəallaşmışdı. Kim onlara qarşı cıxırdısa, erməni, rus, azərbaycanlı fərqi qoyulmurdu – aradan götürülürdü. Dağlıq Qarabağ Muxtar Vilayəti Daxili İşlər İdarəsi supurgəçisindən, katibəsindən tutmuş rəisinə, serjantına qədər ermənilərdən ibarət idi. Dağlıq Qarabağa erməni milislərinin himayəsi altında separatçılar üçün gecə-gündüz silah-sursat, partlayıcı maddələr daşınırdı. Həsənabadda həbsxanada xususi kameralara salınan erməniquldurlar az sonra SSRİ Daxili İşlər Nazirliyinin muhafizəsinə verilirdi. Hətta onların Azərbaycanın əməliyyat işçiləri tərəfindəndindirilməsinə icazə verilmirdi. Erməni ekstrimistlərinə qarşı "əməliyyat tədbirləri keçirməyə rus hərbiçiləri acıq-aşkar mane olurdular. Onların gözu qabağında "Miatsum" birliyinin lideri İ.Muradyan Dağlıq Qarabağa bir vertolyot silah gətirir – "görmürdülər". Hadrutda iri silah-sursat anbarı yaradılır – ermənilərdən haqq-hesab sorulmurdu. Vilayət ərazisində silah istehsalı ucun kənardan şubhə doğurmayacaq muəssisələr secmişdilər. Məsələn, qumbara istehsalı Xankəndindəki asfalt zavodunda təşkil edilirdi. 1988-ci ilin dekabrında Spitakda zəlzələdən sonra guya ziyan görmuş əhaliyə komək adı ilə Ermənistana coxlu silah gətirildi. Livandan, Suriyadan İrəvana gələn təyyarələrdə yüngül və ağır silahlar daşınırdı. (5, s.204). 26 yanvar 1990-cı il. Ağdamdan Şuşaya gələn maşın karvanı güllələbaran edildi. Maşınlardan biri yandırıldı, 3 azərbaycanlı isə yaralandı. Elə həmin gun daha 6 avtomaşına quldur basqını oldu. Laçın–Şuşa yolu da ən qorxulu, təhlukəli nöqtələrdən biri idi. Erməni kəndlərinin əhalisi yolboyu talanla-qarətlə məşğul olur, qanlı qətllər törədirdilər. Jurnalist Salatın xanım Əsgərova burada – Laçın-Şuşa yolunda xaincəsinə qətlə yetirildi. (6, s.78)

7 yanvar 1990-cı ildə Kərkicahana hücum zamanı ermənilər geri otuzdurulur. Bu döyüşdə rəis başda olmaqla Şuşa milis şöbəsinin şəxsi heyəti şücaət və fədakarlıq göstərdilər. 15 yanvar 1990-cı ildə ermənilər tərəfindən Kərkicahanda üç azərbaycanlı qətlə yetirilir. Terrorçulara qarşı əməliyyat planı hazırlanır. Atışma zamanı 6 erməni terrorçu məhv edilir, 8 nəfəri isə yaralanır. Bütün bu əməliyyatlara Sadir Məmmədov özü başçılıq edirdi. Ona görə də o ermənilər tərəfindən mutəmadi təqib olunurdu. (7, s. 108)

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə azğınlaşmış sovet qoşun hissələri Bakıya və Azərbaycanın digər rayonlarına yeridildi, hərbi cinayətlər görünməmiş miqyas aldı. «Qorbaçov» hərbi hissələrinin respublikamıza yeridilməsi nəticəsində müxtəlif millətlərə və dillərə mənsub olan

yüzlərlə Azərbaycan vətəndaşı güllələndi, tankların tırtılları altında əzildi. Azərbaycanın dinc sakinlərinə qanlı divan tutulması «respublikada hakimiyyəti ələ keçirməyə çalışan islam fundamentalistlərinə qarşı mübarizə» adı altında həyata keçirilirdi.SSRİ prezidenti M.Qorbaçov sovet xalqına müraciətdə demişdi ki, Azərbaycanda islam quruluşu yaradılmağa cəhd göstərildiyinə görə, Bakıya hərbi qüvvələr yeridilməsinə şəxsən göstəriş vermişdir. Bu proses nəticəsində günahsız adamlar öldürülmüş, respublikamızın iqtisadiyyatına böyük ziyan dəymişdi. (8, s. 110)

## Nəticə

Dünya birliyinin gözü qarşısında 1945-ci il BMT Nizamnaməsinin prinsipləri pozulur, regionda qeyri-sabitliyi şərtləndirən real təhlükə ocağı yaranıb. Həqiqətdə, bununla BMT Baş Məclisinin münaqişələrin qarşısının alınması ilə bağlı rolu və əhəmiyyəti azalır, Təhlükəsizlik Şurasının bu sahədə fəaliyyəti heçə endirilirdi. BMT Nizamnaməsində xüsusi olaraq qeyd edilir ki, Təhlükəsizlik Şurası, Şuranın üzvü olmayan ölkələrdə potensial münaqişəli vəziyyətlərlə məşğul olmağı daim diqqət mərkəzində saxlamalı, Baş Məclisin üzvü olan dövlətlər isə silahlı münaqişələrin qarşısının alınması məsələlərilə bağlı öz mövqelərini bildirməlidirlər. Son dövrdə BMT Təhlükəsizlik Şurasının transparentlik səviyyəsinin yüksəldilməsinə, iş metodlarının təkmilləşdirilməsinə baxmayaraq, müasir beynəlxalq münasibətlərin reallıqları sübut edir ki, (xüsusilə Mərkəzi Qafqaz regionunda) yalnız zorakılığın kütləvi xarakter daşıdığı böhranlı və fövqəladə şəraitlərdə Təhlükəsizlik Şurası hadisələrə aktiv müdaxilə edir. Bununla əlaqədar, belə hesab etmək olar ki, dünya birliyinin yeni metod və vasitələr axtarması məqsədilə Təhlükəsizlik Şurasının preventiv tədbirlərə əl atması beynəlxalq hüquq qaydalarına uyğundur. Belə vasitələrə misal olaraq BMT Baş Katibinə beynəlxalq sülhə və təhlükəsizliyə başlıca təhlükə olan münaqişələrə dair məruzələri, habelə preventiv xəbərdarlıq tədbirlərini aid etmək olar. Belə məruzələr, əsasən, regional münaqişələrə və sərhəd məsələlərinə (qeyri-qanuni silah daşınması, qaçqınlar problemi, insan alveri, muzdluların göndərilməsi və s.) aid ola bilər, çünki bunlar müəyyən regionda sülh və təhlükəsizliyə potensial təhlükə mənbələri sırasındadır.

## References

1. L.H.Hüseynov. International law. Textbook. Baku: Law Publishing House, 2012.
2. Nagorno-Karabakh realities and international law. Textbook. Baku: Translator 2018
1. 3.Vasilenko VA Fundamentals of the theory of international law. Kiev, 1988.
3. Evintov VI International community and law and order (analysis of modern concepts). Kiev, 1990.
4. Movchan AP International law and order. M.., 1996.
5. Müllerson R.A. International public and international private right: relationship and interaction.
6. Sov. Annual International Law, 1985. M .., 1986.
7. Amir Aliyev. Azerbaijan is a target of international crimes. Baku 2018
8. http://law.bsu.edu.az/en/content/aliyev_amir_ibrahim_oglu

**Rəyçi: dos. C.Quliyev**

Göndərilib: 12.11.2020 Qəbul edilib: 28.01.2021

DOI: https://www.doi.org/10.36719/2789-6919/2/19-22

**Aydan Rasim qızı Əbdülbağıyeva**
Bakı Dövlət Universiteti
magistrant
ayaapril@yandex.ru

# İNTERNET ASILILIĞI QEYRİ-KİMYƏVİ ADDİKTİV POZUNTUNUN FORMASI KİMİ

**Xülasə**

Hazırda sosial şəbəkə gənc nəslə təsir göstərən ən güclü alətə çevrilib. "İllüziyalı dünya" gündən-günə onları daha çox cəlb edir. İnternetin "sehrinə" aludə olan yeniyetmələr bir gün ondan asılı vəziyyətə qalacaqlarını ehtimal belə etmirlər. Real problemlərdən fantastik dünyaya qaçan yeniyetmələr virtual həyatı zamanla reallıq kimi qavradıqlarının fərqinə varmırlar. İnternetdə uzun müddət vaxt keçirmək sağlamlığa da təsirsiz ötüşmür. Saatlarla eyni vəziyyətdə qacet qarşısında oturmaq dayaq-hərəkət aparatının, ürək-damar və sinir sisteminin, göz orqanının patologiyasına gətirib çıxarır. Yeniyetmələrin asudə vaxtında nə ilə məşğul olması gələcəkdə onun şəxsiyyətinin keyfiyyətinin formalaşmasına, tələbatlarına, dəyərlər sisteminə, ümumilikdə onun cəmiyyətdə hansı mövqe tutacağına əhəmiyyətli təsir göstərir.

***Açar sözlər:*** internet, qeyri-kimyəvi asılılıq, internet-addiksiya, yeniyetmə, kommunikasiya, natamamlıq kompleksi.

**Aydan Rasim Abdulbagiyeva**

## Internet addiction as a form of non-chemical addictive disorder

**Abstract**

Today, the global network has become the most powerful tool for influencing the younger generation. The illusory world attracts them more and more. Adolescents addicted to the "magic" of the Internet do not even think that one day they will become addicted to it. Adolescents fleeing from real problems to the fantasy world do not realize that they perceive virtual life as reality over time. Spending a long time on the Internet does not go unnoticed. Sitting in front of a gadget for hours in the same position leads to pathology of the musculoskeletal system, cardiovascular and nervous systems, and the eye. What teenagers do in their free time has a significant impact on the formation of the quality of his personality, needs, value system, and his position in society in general.

***Keywords:*** internet, non-chemical dependence, internet-addiction, teen, communication, inferiority complex.

## Giriş

Hazırkı dövrdə internet asılılığı demək olar ki, hər ailədə müşahidə olunur. İnsanların əksəriyyəti özünü canlı ünsiyyətdən, həqiqi tanışlıqlardan və emosiyalardan məhrum edərək virtual həyatda yaşayır. Təəssüflər olsun ki, bir çox ailələrdə valideynlərlə uşaqlar birlikdə vaxt keçirmək əvəzinə valideynlər vaxtını telefonda, övladları isə kompüter qarşısında keçirirlər.

İnsanların çoxu təsdiq edər ki, sosial şəbəkə istifadəçilərin qarşısına böyük imkanlar təqdim edir: müxtəlif dinə, millətə, peşəyə və maraqlara sahib olan insanları birləşdirir. "Onlayn" ünsiyyət qurmaq həm rahatdır, həm də daha az zaman itkisinə şərait yaradır. Qısacası, internet gündəlik həyatda bir çox problemləri yüngülləşdirir. Lakin onun zərərli tərəfləri də var. Bir çox hallarda sosial şəbəkələrdə müəyyən yaş qrupu üçün qadağan olunmuş məlumatlar senzura olmadan paylaşılır. Buna görə də, valideynlər faciəvi nəticələrin qarşısını almaq məqsədilə övladlarının hansı internet səhifələrinə daxil olduqlarına nəzarət etməlidirlər [10].

İnternet asılılığı problemi ilə ilk dəfə 90-cı illərin əvvəllərində amerikalı həkim-psixoterapevtlər qarşılaşmışdır. Böyük şirkətlərin sahibləri işçilərdə yaranan problemlərlə bağlı onlara müraciət edirdilər. Sahibkarlar etibarlı və məsuliyyətli işçilərin birdən-birə etibarsız olmağından, işdə ehtiyatsız səhvlər buraxmağından, başladıqları işə sona çatdırmamağından qaynaqlanan itkilərindən şikayətlənirdilər. Buna

baxmayaraq, həmin işçilər rəsmi olaraq işə yenə də intizamlı yanaşırdılar: onların əksəriyyəti iş saatının bitməyinə baxmayaraq ofisdə qalırdılar, uzun müddət kompüter qarşısında vaxt keçirirdilər. Bu hallar internet asılılığının ilk təzahürləri idi [1].

"İnternet asılılığı" termini ilk dəfə 1996-cı ildə ABŞ-da tədqiq olunmuşdur və amerikalı psixiatr Ayven Qoldberq tərəfindən irəli sürülmüşdür. O bu termini "internetdən istifadəyə görə sosial və peşəkar fəaliyyətin aşağı düşməsi", "internetlə bağlı arzu və fantaziyalar", "barmaqların klaviatura üzərində məqsədli və məqsədsiz hərəkəti" kimi təsvir etmişdir [8]. İnternet asılılığı və ya İnternet-addiksiya fenomeninin öyrənilməsinə 1994-cü ildə Kimberli Yanqın xüsusi sorğu işləyib web-sayta yerləşdirməsindən sonra başlanıldı. Sorğuda iştirak edən 500 nəfərdən 400-nün internet asılılığından əziyyət çəkdiyi məlum oldu. 1997-1999-cu illərdə İnternet-addiksiya ilə bağlı tədqiqat və konsultativ-psixoterapevtik web-xidmətlər yaradıldı. 1998-1999-cu illərdə bu mövzuda ilk monoqrafiyalar nəşr olundu (K.Yanq, D.Qrinfild, K.Surratt).

K.Surrattın fikrincə, sosial şəbəkədə qarşılıqlı təsir reallıqda zəruri olan bütün keyfiyyət və xüsusiyyətlərə malikdir. Belə ki, burada spesifik struktura və normalara malik olan qarşılıqlı təsirin əks olunduğu icmalar, icma üzvləri arasında sabit münasibətlər, yeni üzvlər üçün başlanğıc və qrup dəyərləri formalaşır. İnsanlar bu icmalara İnternet-addiksiyanın təsirilə yox, iradəli şəkildə daxil olurlar. Lakin faktlar bunun əksini sübut edir. İnternetdən istifadəsi qadağan edilən yeniyetmələrin törətdikləri cinayətlər buna misal ola bilər. "İnternetdən qeyri-kimyəvi asılılıq" internetə qoşulmaqla bağlı obsessiv arzulardan və internetdən iradəli şəkildə vaxtında çıxa bilməməkdən ibarətdir (Qriffis, 1996). Bu asılılıq internet-oyunlardan, internet alış-verişindən, onlayn auksiondan və başqa növ aktivliklərdən yarana bilər. İnternetdən asılılığı olan yeniyetmələrin əksəriyyəti müəyyən bir məqsəd olmadan internetdə həddindən çox vaxt keçirirlər. Onların əksəriyyəti internetdən sosial şəbəkələrdə ünsiyyət qurmaq məqsədilə istifadə edirlər [1][4][6].

Psixiatr Kimberli Yanq qeyd etmişdir ki, İnternet-addiksiya davranış və maraqlara nəzarət ətrafında yaranmış böyük problemləri əhatə edən geniş termindir [5]. Psixiatr Kimberli Yanqın "İnternet asılılığı: yeni pozuntunun meydana gəlməsi" adlı məqaləsi nəşr olunduqdan sonra tədqiqatlar daha çox inkişaf etmiş ölkələrdə internet asılılığından əziyyət çəkən insanların sayının çoxaldığını təsdiq etdi. Yanqın fikrincə, internet asılılığı olan insanlar internetdən sosial dəstək almaq məqsədilə istifadə edirlər: ideallarındakı qəhrəmanı yarada bilirlər, ətrafdakı insanlardan gözlədiyi reaksiya və xoş etiraflar alırlar. A.E.Voyskunski hesab edir ki, internet asılılığı həqiqətdə mövcud olan fenomendir və onu pozuntu hesab etmək üçün hazırda kifayət qədər tibbi məlumatlar yoxdur.

İnternet asılılığı problemini eləcə də, M.Şotton, C.Qroxol, K.Mürrey, D.Qrinfild, S.P.Korolenko, A.E.Liçko və başqaları tədqiq etmişlər.

S.P.Korolenkonun fikrincə, addiktiv pozuntuların kökündə bir addiksiya formasından digərinə, bir addiksiya obyektindən o birisinə asanlıqla keçə bilən ümumi mexanizmlər dayana bilər. Addiktiv davranışın vacib xüsusiyyəti real həyatdan və sıxıcı problemlərdən psixi vəziyyəti rahatlaşdıran fəaliyyətlər vasitəsilə uzaqlaşmaqdan ibarətdir.

Tədqiqatlar göstərir ki, addiktivlik neyrofizioloji mexanizmlərə əsaslanan şəxsiyyət xüsusiyyətidir [7]. Addiktiv davranışdan əziyyət çəkən insanlarda beynin strukturunda dominant qıcıqlanma ocaqlarının sürətlə formalaşmasına meyillilik, diqqət və təfəkkürün spesifik pozulması, aleksitimiya, qeyri-konstruktuv psixoloji müdafiə mexanizmləri kimi patopsixoloji fenomenlər müşahidə olunur.

Addiktiv davranışdan əziyyət çəkən insanlar proqnozlaşdırma qabiliyyətini itirir, səbəb-nəticə əlaqəsi qura bilmir, informasiya ilə manipulyasiya olunur və bütün bunlarla əlaqədar olaraq, əlavə fizioloji itkilərə yol verməməyə ehtiyac duyur. Beynin sol yarımkürəsinin funksionallığının zəifləməsi situasiyanın zəif qavranılmasında, özünüdərketmənin və özünüqiymətləndirmənin pozulmasında özünü göstərir.

Yanqın tədqiqatlarına görə, internet asılılığı olan insanların əksəriyyəti ünsiyyətlə bağlı olan web-xidmətlərdən istifadə edir. Digər, daha az qismi isə internetdən məlumat əldə etmək məqsədilə istifadə edir.

İnternet asılılığının əlamətləri aşağıdakı kimi xarakterizə olunur:

- Asılılığın sürətlə formalaşması. Alkoqolizm, narkomaniya, qida asılılığı kimi ənənəvi addiksiyalar uzun illər boyunca formalaşsa da, İnternet-addiksiya çox qısa zamanda insanın bütün

həyatını zəbt edir. K.Yanqın tədqiqatlarına əsasən, addiktlərin 25%-i internetdə işləməyə başladıqdan 6 ay müddətində, 58%-i ikinci yarımil ərzində, 17%-i isə 1 ildən sonra asılı vəziyyətə düşmüşdür;

- Emosional rəngarənglik. Sosial şəbəkələr insanlarda emosional yüksəliş, həyəcan və ya relaksasiya hissi yaradır. Onlayn olarkən, insan məmnuniyyət hiss edir, özü və vəziyyət üzərində nəzarəti saxlaya bildiyini düşünür;
- Onlayn olduğu müddətdə fiziki vəziyyətinə nəzarəti itirmək (yorğunluq, aclıq və s.);
- İnternetə qoşulmaqdan ibarət kompulsiv arzular və qoşula bilmədikdə kəskin narahatlıq hissinin yaranması;
- İllüziyalı məqsədlər naminə (internet-oyunlar, sosial şəbəkələrdə ünsiyyət və s.) həyat tərzinin sağlamlığa zərər verəcək istiqamətdə dəyişməsi;
- Öz davranışına nəzarət edə bilməmək;
- İnternetdə vaxt keçirərkən və ya kompüterdə məşğul olarkən əhval-ruhiyyənin və eyforiya hissinin yüksəlməsi;
- Çəkinin artması və ya azalması, bel nahiyəsində ağrı, baş ağrıları kimi fizioloji dəyişikliklərin meydana gəlməsi;
- Yuxu rejiminin və yuxu keyfiyyətinin pozulması;
- Ətrafdakı insanlara qarşı haqsız davranışlar;
- Nitqində spesifik jarqon və aydın olmayan sözlərdən istifadə etmək;
- İnternetdə hədsiz çox vaxt keçirmək (hətta 18 saatdan çox vaxt) və keçirilən vaxta nəzarətin itirilməsi;
- Real həyatda olmaqdan narahatlıq keçirmək;
- Kibermühitdə keçirilən zamanın gizlədilməsi və ya bu barədə yalan danışmaq;
- Məmnuniyyət hissi yaşadan digər fəaliyyət növlərindən imtina etmək;
- Ailəyə və tanışlara qarşı etinasızlıq;
- Əhval-ruhiyyənin internetə qoşulub-qoşula bilməməkdən asılı vəziyyətə düşməsi [9].

İnternet asılılığı olan insanların bir çoxu kompüter mövzusunu ətrafındakı hər kəslə müzakirə edir və düşünür ki, bu mövzu hər kəsə maraqlıdır və onlar bu müzakirəni aydın şəkildə başa düşürlər. Bundan əlavə, internet asılılığı olan insanlar hətta onlara təklif olunan ən cəzbedici təklifləri də internetdə daha çox vaxt keçirmək naminə geri çevirirlər.

İnternet uzun müddət klassik fiziki asılılıq yaratmasa da, onun fəsadları xüsusilə vegetativ sferada özünü göstərir [11].

İstifadəçi internetdə nəhəng informasiya axını ilə qarşılaşır və hər saniyə qarşısına çıxan yüzlərlə fürsəti əldən vermədən bu informasiyanı qavramağı, fiksə edib işləməyi çatdırmalı olur. Belə nəhəng qıcığa məruz qalan beyin bu tapşırığın öhdəsindən gələ bilmir. A.Y.Voyskunskinin fikrincə, subyekt eyni anda bütün bunları yerinə yetirməyə çalışdığı zaman öhdəsindən gəlmədikdə özünəməxsus trans halına düşür və müvəqqəti olsa da, sosial-psixoloji adaptasiya prosesi kəskin pozulur [2].

İnternetdə uzun müddət vaxt keçirmək sağlamlığa təsirsiz ötüşmür. Saatlarla eyni vəziyyətdə qacet qarşısında oturmaq dayaq-hərəkət aparatının, ürək-damar və sinir sisteminin, göz orqanının patologiyasına gətirib çıxarır.

Yeniyetmələrdə internet asılılığının gətirib çıxardığı nəticələr aşağıdakı formada özünü göstərir:

- Depressiya;
- Təhsildə meydana gələn çətinliklər;
- Məktəbdəki münasibətlərdə yaranan problemlər;
- Həmyaşıdlar arasında anlaşılmazlıqlar və münasibətlərin korlanması;
- Müxtəlif pozuntuların meydana gəlməsi (piylənmə, nevroz, skolioz və s.);
- Hər şeyə laqeyd yanaşmaq;
- İnsanlara qarşı xoşagəlməz davranış;
- Ailə münasibətlərinin korlanması və s.

Ümumilikdə, internet asılılığından əziyyət çəkən insanların xarakterik xüsusiyyətləri digər müəlliflər tərəfindən natamamlıq kompleksi, aşağı özünüqiymətləndirmə, özündən narazı olmaq, fantaziyalara meyillilik, utancaqlıq, sosial fobiyanın mövcud olması, sosial statusuna və ya şəxsiyyətinə qarşı

diqqətsizliyin çatışmadığının dərk edilməsi, özünəqapalılıq, fiziki gücsüzlük kimi xarakterizə edilmişdir [3].

İnternet asılılığından əziyyət çəkən yeniyetmə özünə inanmayan və təhlükəsiz ünsiyyət axtaran həssas introvertdir. Kompüter digər addiktiv vasitələr kimi (alkoqol, narkotik vasitə və s.) real problemlərdən, məişət çətinliklərindən qaçmağa imkan verir. Əgər yeniyetmə real həyatda uğursuz birisidirsə və ya bu fikir yalnız onun düşüncələrində mövcuddursa, o, virtual həyatda daha uğurlu bir "əkiz tayı" yaradır [12].

Beləliklə, internet asılılığından əziyyət çəkən yeniyetmələrin şəxsiyyətinin xüsusiyyətlərini analiz etsək, onlarda yetkinləşməmiş obraz, formalaşmamış həyat məqsədləri, yeni hisslərə və riskli davranışa meyillilik müşahidə etmiş olarıq [7].

Hazırda internet asılılığından azad olmağın universal və ümumqəbuledilmiş üsulu yoxdur. Lakin internet asılılığından əziyyət çəkən yeniyetmələrin şəxsiyyətlərarası qarşılıqlı təsir və sosial adaptasiya sahəsində problemlər yaşadığını nəzərə alsaq, onlarla müvafiq qrup məşğələlərinin keçirilməsi məqsədəuyğundur. Qrup məşğələlərinin aşağıdakı istiqamətlərdə aparılması nəzərdə tutulmuşdur:

1. Dayanıqlı və müsbət özünüqiymətləndirmənin, özünəinamın formalaşdırılması;
2. Kommunikativ bacarıqların inkişaf etdirilməsi və şəxsiyyətlərarası münasibətlərin bərpa edilməsi;
3. Özünüdərketmə: özünüanaliz qabiliyyətinin formalaşdırılması, özünün güclü və zəif tərəflərinin dərk olunması və onları bir-biri ilə kompensasiya etməyin öyrədilməsi və s.;
4. Özünənəzarət bacarıqlarının inkişaf etdirilməsi: məsuliyyət, öz problemlərini sərbəst şəkildə həll etməyi öyrətmək və s.;
5. Sosial-psixoloji adaptasiya: stressə dayanıqlılığın və aktivliyin artırılması.

**Nəticə.** Qeyd olunanlardan belə nəticə çıxır ki, yeniyetmələrin asudə vaxtında nə ilə məşğul olması gələcəkdə onun şəxsiyyətinin keyfiyyətinin formalaşmasına, tələbatlarına, dəyərlər sisteminə, ümumilikdə onun cəmiyyətdə hansı mövqe tutacağına əhəmiyyətli təsir göstərir.

**Rəyçi: prof. R.H.Qədirova**

## Ədəbiyyat

1. A.E.Voiskunski İnternet Asılılığı Fenomeni. İnternetdə humanitar tədqiqatlar. M. 2000 C100
2. A.E. Voiskunsky İnternet asılılığı fenomeninin psixoloji tədqiqatı // Ekoloji Psixologiya üzrə 2-ci Rusiya Konfransının tezisləri. M.: Ecopsycenter ROSS, 2000 S.251
3. V.A. Loskutova İnternet asılılığı kimyəvi olmayan asılılıq pozğunluqlarının bir forması kimi: müəllif. Dis. Psixologiya elmləri namizədi. Novosibirsk 2004.
4. V.A. Loskutova İnternet asılılığı kimyəvi olmayan asılılıq pozğunluqlarının bir forması kimi: müəllif. Dis. Psixologiya elmləri namizədi.
5. http://www.narcom.ru/Ideas/common/15.html
6. K.S.Yang Diaqnozu - İnternet Asılılığı. İnternet Dünyası №2, səh.24
7. L.N.Yuryeva Kompüter asılılığı / L.N.Yuryeva, T.Yu.Bolbot - Dnepropetrovsk, 2006
8. M.G.Çuxrova - Narkomaniya: asılılıq davranışı: monoqrafiya / M.G.Çuxrova, V.P.Leutin - Novosibirsk, 2010
9. David Wallis. Just click no. https://www.newyorker.com/magazine/1997/01/13/just-click-no
10. http://cyberpsy.ru/articles/young-internet-addiction/
11. http://womanadvice.ru/internet-zavisimost-problema-sovremennogo-obshchestva
12. http://constructorus.ru/zdorovie/internet-zavisimost.html
13. https://cyberleninka.ru/article/n/internet-zavisimost-kak-variant-addiktivnogo-povedeniya/viewer

Göndərilib: 16.11.2020 Qəbul edilib: 2.02.2021

# TƏBİƏT ELMLƏRİ BÖLMƏSİ

## NATURAL SCIENCES SECTION

DOI: https://www.doi.org/10.36719/2789-6919/2/23-28

**Mahirə Firudin qızı Əmirova**
Azərbaycan Tibb Universiteti
biologiya üzrə fəlsəfə doktoru, dosent
gerayelmira@gmail.com
**Gülnarə İbrahim qızı Əzizova**
Azərbaycan Tibb Universiteti
biologiya elmləri doktoru, professor
gulib18@mail.ru
**Ellada Eldar qızı Hüseynova**
Azərbaycan Tibb Universiteti
biologiya üzrə fəlsəfə doktoru, assistent
ellada.huseyn@mail.ru
ORCİD: 0000-0001-5598-6995

# SAĞLAMLIĞI QORUMAQ MƏQSƏDİYLƏ ANTİMİKROB PEPTİDLƏRİN ƏSAS SİNTEZ EDİLMƏ PRİNSİPLƏRİ

**Xülasə**

Son zamanlar antibiotiklərə qarşı rezistentliyin artması ilə əlaqədar infeksion xəstəliklərin yayılması və onların müalicə müddəti uzadılmışdır. Bu eyni zamanda infeksion xəstəlklərdən ölüm sayının artmasına da gətirib çıxarmışdır. Beləliklə yeni, mikroorqanizmlərin rezistentlik yarada bilmədiyi maddələrin tətbiq edilməsinə eytiyac duyulur. Belə maddələrə antimikrob peptidlər (AMP) aiddir. Təbii AMP bəzən tələbata uyğun gəlmədiyindən onların sintetik analoqlarının alınması tibb elminin aktual problemlərdən birinə çevrilmişdir. Bu məqsədlə AMP-lərin ümumi xassələri, habelə onların ayrı-ayrı sahələrinin aktivlik və toksikliyə, membrandan keşmə qabiliyyətinə təsiri öyrənilməkdədir. İsbat olunmuşdur ki AMP-da hidrofob aminturşuların artması onların patogen organizmlərin membranlarıyla birləşməsini artıra bilər. Müsbət yüklü aminturşuların peptidlərə əlavə edilməsi onların membranda yerləşən mənfi yüklü fosfolipidlərlə, turşularla birləşmə qabiliyyətini artırır. Məqalədə AMP-lərin mikroorqanizmlərə qarşı məhvedici təsiri izah edən üç mülahizə verilmişdir. AMP-lərin sintezi zamanı onların mikroorqanizmlərin membranlarınaa qarşı affinitetini artırmaq və eyni zamanda onlarda patogenlərin inkişafını dayandıra biləcək ardıcıllıqları əldə etmək yalnız həmin peptidlərin fiziki-kimyəvi xassələrini nəzərə almaqla mümkündür. Bu məqsədlə məqalədə sintetik AMP-lərin kimyəvi quruluşunda törədilən dəyişikliklərin onların aktivliyinə təsiri nəzərdən keçirilir. Məqalədə təqdim olunan materiallar AMP sintezi ilə məşğl olan laboratoriyalar üçün şox böyük əhəmiyyətə malikdir.

***Açar sözlər:*** *amfifillik, antimikrob peptidlər, ion yükü, hidrofobluq, hemolitik və toksik təsir*

**Mahira Firudin Amirova**
**Gulnara Ibrahim Azizova**
**Ellada Eldar Huseynova**

## Basic principles of antimicrobial peptides synthesis for health protection

**Summary**

Recently, the spread of infectious diseases and their treatment duration has been extended due to increased resistance to antibiotics, that has led to an increase in deaths from infectious diseases. Thus, there is a need to apply new substances that microorganisms cannot create resistance to. Such

substances include antimicrobial peptides (AMP). Since natural AMPs sometimes do not meet the demand, the acquisition of their synthetic analogues has become one of the urgent problems of medical science. For this purpose, the general properties of AMPs, as well as the impact of the individual areas on their activity and toxicity, membrane permeability are studied. It has been shown that an increase in hydrophobic amino acids in AMP can increase their binding to the membranes of pathogenic organisms. The addition of positively charged amino acids to peptides increases their ability to bind to negatively charged phospholipids and acids located in the membrane. The paper presents three considerations explaining the destructive effects of AMPs on microorganisms. During the synthesis of AMPs, it is possible to increase their affinity toward the membranes of microorganisms, as well as to obtain sequences that can stop the growth of pathogens by taking into account the physicochemical properties of these peptides. For this purpose, the paper considers the effect of changes in the chemical structure of synthetic AMPs on their activity. The materials presented in the article are of great importance for laboratories engaged in the synthesis of AMP.
***Key words:*** *amphipathicity, antimicrobial peptides, ion charge, hydrophobicity, hemolytic and toxic effects*

## Giriş

Antimikrob peptidlər (AMP) canlı organizmlərdə geniş yayılmış özünümüdafiə sisteminin ayrılmaz hissəsi olaraq yüksək antimikrob aktivliyə malik olan qısa zəncirli peptidlərdən təşkil olunublar. Son zamanlar antibiotiklərə qarşı rezistentlik yarandığından AMP-lərin təbabətdə tətbiqi və onların yeni növlərinin sintezi xüsusi əhəmiyyət kəsb edir. Hal-hazırda dünyanın aparıcı laboratoriyalarında alimlərin diqqəti toksikliyi insan orqanizmi üçün aşağı olan, antimikrob aktivlik dərəcəsi isə yüksək olan AMP-lərə yönəlmişdir [Zhang LJ.& Gallo RL., 2016]. AMP-lərin sintezi üçün kimyəvi, enzimatik, bioloji yollar və mikroorqanizmlərin fermentləri istifadə olunur. Bioloji sintez zamanı *E. coli* kimi rekombinant mikroorqanizmlər vektor məqsədiylə istifadə olunurlar. Mikroorqanizmlərin hasil etdiyi fermentlər üsuludan istifadə etdikdə həmin fermentlər müəyyən zülalı parçalamaqla qısa peptidlər əmələ gətirirlər, bundan sonra həmin peptidlərin xassələri öyrənilir və onlardan məqsədə uyğun olanı seçilib istifadəyə verilir. Bu üsul əslində enzimatik yolun bir başqa növüdür. Belə ki, enzimatik yolla peptid əldə edildikdə fermentin istənilən (adətən bitki və heyvan) mənbədən alınması mümkündür. Kimyəvi sintez üşün bərk-fazalı sintez və/ ya maye-fazalı sintezdən istifadə edilir.

Hal-hazırda sintez olunan AMP-lər insan hüceyrələrinə mənfi təsir göstərə bildiyinə görə onları əsasən qida məhsullarının saxlanılma müddətinin uzadılması məqsədilə istifadə edirlər. AMP-lərin qida məhsullarına əlavə edilməsi zamanı onların toksik təsiri, hemolitik aktivliyi və organizmin fermentləri tərəfindən parçalanaraq proteolizə uğrama dərəcəsi nəzərə alınır. Bu nöqteyi nəzərdən AMP-lərin kation yükü, hidrofobluğu, amfifilliyi mühüm əhəmiyyət kəsb edir. AMP-in təsir etmə gücü onların mənfi yüklü hüceyrə membranı ilə qarşılıqlı təsirdə olma imkanından asılıdır. Qələvi xassəli arginin və lizin aminturşu qalıqları membranla ilkin qarşılıqlı təsir yaradaraq AMP-in mənfi yüklənmiş membrana daxil olmasını asanlaşdırırlar. Üstəlik, bu müsbət yüklənmiş aminturşu qalıqları membranda yerləşən valin, triptofan, leysin, alanin, tirozin və fenilalanin qalıqları ilə kovalent və qeyri-kovalent əlaqələrin yaranmasında da iştirak edə bilirlər [Lee M.Y. et al., 2018]. Arginin lizinə nibətən daha böyük müsbət yükə malik olduğundan sintetik AMP-lərin sintezi zamanı argininin peptidə yerləşdirilməsi antimikrob xassələrin daha qabarıq şəkildə meydana çıxmasına şərait yaradır. Lakin argininin peptidə yerləşdirilməsinin mənfi cəhəti ondan ibarətdir ki, o eyni zamanda hemolitik aktivliyin xeyli artmasına səbəb olur. Argininin yan zənciri ilə membranın hidrofob qatında məskunlaşan mikroorqanizmlərin arasında da stabil qarşılıqlı əlaqələr yaranır. Belə ki, Grassi et al., 2017 aşkarlayıblar ki arginin qalıqlarının temporin- Shf analoqların tərkibinə yeridilməsi onların *Saccharomyces cerevisiae* göbələyin zəncirinə qarşı aktivliyini artırır [Grassi L et al., 2017]. Beləliklə argininin yeni sintez olunan AMP-in tərkibində yerləşdirilməsi həmin peptidin aktivlik dərəcəsini müəyyənləşdirən amil kimi qəbul edilə bilər. Argininin hemolitik təsirini məhdudlaşdırmaq üçün isə onu (və lizini) α-spiralın hidrofob səthinə yerləşdirmək məsləhətdir. Argininin bu sahədə

yerləşdirilməsi peptidin amfifillik göstəricisinə də təsir edir [Chan D.I. Et al., 2006]. Bununla yanaşı arginin və lizin histidinlə də əvəz oluna bilər, çünki sonuncunun izoelektrik nöqtəsi nisbətən aşağıdır (neytral mühitə yaxındır), turş mühitdə isə o, membranla birləşmək üçün tələb olunan əlavə müsbət yükü əldə edə bilir. Arginin və lizin isə yüklü olduğundan peptidin amfifilliyinə mənfi təsir göstərir, belə ki bu amin turşular AMP-ın hidrofobluq sahəsini məhdudlaşdırırlar. Bu nöqteyi nəzərdən də sintetik AMP-lərin sintezi zamanı histidinin istifadə edilməsi daha əlverişlidir [Kacprzyk L et al., 2007]. Həmçinin AMP-in mikroorqanizmlərin membranları ilə birləşməsi üçün də hidrofob aminturşular tələb olunur. Bunlara alanin, valin, qlisin və s. amin turşular aiddir. Bu aminturşular eyni zamanda AMP-in ümumi yükünü azaldırlar. Peptidin hidrofobluğu artdıqca onun yüksək qatılıqlı duz məhlullarına qarşı həssaslığı azalır, bu isə onun membran-dağıdıcı və sitotoksik effektini aşağı salır. Beləliklə sintetik AMP sintezi zamanı onun hidrofobluğunu artırmağa ehtiyac olsa da, bunu yalnız orta dərəcədə etmək mümkündür. Beləliklə AMP-nın hidrofobluğunu yalnız müəyyən diapazonda artırıb-azaltmaq məsləhətdir, çünki bu diapazondan kənara çıxan kimi AMP-nın antimikrob aktivliyi də sürətlə aşağı düşür [Chen Y. et al., 2007]. Qeyd edək ki yüksək hidrofobluğa malik olan AMP-lər dərhal məməlilrin membranlarına daxil olur və orada hemoliz törədirlər. AMP-in bu xüsusiyyəti Zhao et al., 2013 tərəfindən *Helicobacter pylori* bakteriyanın HPRP-A1 peptidində bircə aminturşunun əvəz edilməsi ilə onun hidrofobluğunun dəyişməsini göstərməklə isbatlandı [Zhao L. et al., 2013]. Qeyd edək ki, HPRP-A1 *Helicobacter pylori* bakteriyanın ribosomal L1 (RpL1) zülalın N-ucundan əldə edilmiş xərçəng əleyhinə aktivlik göstərən amfifil α-zəciridir [Hao X. et al., 2015]. Hidrofobluğun artmasıyla AMP-də hemolitik aktivliyin yüksəlməsini onunla izah edirlər ki, belə peptidlər asanlıqla ikiqat lipid təbəqə ilə qarşılıqlı təsirə girə bilirlər. Beləliklə məməlilərin hüceyrələrinə qarşı bu kimi toksik effekti azaltmaq məqsədilə sintez olunan AMP-lərdə hidrofob radikalların balansını saxlamaq çox vaibdir.

